# Qalib Azərbaycanın Zəfər paradı – tariximizin ən parlaq səhifəsi

**Dünən təcavüzkar Ermənistanın 30 il ərzində işğal altında saxladığı əzəli-əbədi torpaqlarımızın azad olunmasının təntənəsinə çevrilən möhtəşəm Zəfər paradı keçirildi. Bu qələbə bayramı ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli sərkərdə fəaliyyətinin, müdrik siyasətinin və Azərbaycan Ordusunun güc-qüdrətinin, döyüş ruhunun məntiqi nəticəsi idi. Bu parad, eyni zamanda, bütün dünyaya xalqımızın torpaq, yurd sevgisini, haqq-ədalət uğrunda mübarizə əzmini, yumruq kimi bir olmağını, milli birliyini nümayiş etdirdi, həmçinin şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə soyqırımları zamanı həlak olan günahsız insanların qanlarının yerdə qalmadığını göstərdi.**




2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən hərbi paradda dövlətimizin başçısının söylədiyi: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq", – fikirləri Silahlı Qüvvələrimizin Ali Baş Komandanının uzaqgörənliyini bir daha təsdiqlədi. Zəfər bayramında meydanda qürurla addımlayan əsgər və zabitlərimiz, nümayiş etdirilən texnika Azərbaycan Ordusunun döyüş ruhundan, qələbə sevincindən, silahlı qüvvələrimizin hansı imkanlara malik olmasından xəbər verirdi.

Paradda diqqətçəkən bir məqamı da xüsusi vurğulamaq istərdim. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu bayrama qatılması ilə qardaş ölkənin Azərbaycana sevgisinin bir daha şahidi olduq. Müharibə günlərində ordumuzun zəfər yürüşündən fərəh hissi keçirən, "Azərbaycandan xoş xəbərlər aldıqca çox qürurlanırıq, sevinirik" – deyən qardaş ölkə rəhbəri bu səfəri ilə istər ağır, istərsə də xoş günlərimizdə Azərbaycanın yanında olduğunu, sevincimizi bölüşdüyünü bütün dünyaya nümayiş etdirdi.

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibəti ilə Bakıda təntənəli hərbi parad keçirilən zaman dediyi sözləri bu tarixi günümüzə də aid edə bilərik: "Əziz dostlar, bu gün, sözün əsl mənasında, tarixi bir gündür, Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günüdür. Biz bu nəslin nümayəndələri bu günü yaşadırıq, yaşadacağıq. Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz, qardaşlığımız əbədidir".

Bəli, Türkiyə və Azərbaycanın möhkəm, sarsılmaz birliyi Vətən müharibəsi günlərində də özünü qabarıq büruzə verdi, Türkiyə hər zaman olduğu kimi, yenə də Azərbaycanın yanında oldu, tarixi zəfəri bizimlə birgə yaşadı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan: "Qarabağda qazanılan zəfər həm beynəlxalq hüquq, həm diplomatik, həm də hərbi baxımdan Azərbaycana ana südü kimi halaldır", – bildirdi. Daha sonra "Azərbaycan kimsənin torpağına əl uzatmadı, göz dikmədi, kimsəyə hücum etmədi. BMT və ATƏT qərarlarına rəğmən 30 il işğal altında saxlanan torpaqlarını azad etdi. Bunu da ermənilər kimi dinc insanların yaşadığı yeri hədəf almaqla deyil, qanun çərçivəsində gerçəkləşdirdi", – deyə vurğuladı.

Bu məqamda onu da xatırlatmaq yerinə düşər ki, Azərbaycanın Vətən müharibəsində əldə ediyi möhtəşəm qələbənin əsası son 17 il ərzində qoyulub. Prezident, Ali Baş Komandan İlham Əliyev bu dövrdə ordumuzun güclənməsinə daim önəm verib, ən müasir döyüş texnikasının alınmasını gerçəkləşdirib. Əsgər və zabitlərimizin sosial şəraitinin yaxşılaşdırılmasını hər zaman diqqət mərkəzində saxlayıb. Məhz bütün bunların nəticəsi idi ki, 44 günlük döyüşlərdə silahlı qüvvələrimiz möhtəşəm uğurlara imza atıb, döyüş meydanında öz üstünlüyünü dəfələrlə sübut edib.

Vətən müharibəsində ordumuz erməni tərəfinin, təqribən 30 il ərzində işğal olunan torpaqlarda yaratdığı müdafiə xətlərini, mühəndis qurğularını şücaətlə dağıtdı, komanda məntəqələrini, çox sayda hərbi texnikasını, canlı qüvvəsini məhv etdi. Bu, silahlı qüvvələrimizin dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsinin əbəs deyilmədiyini təsdiqlədi. Dövlətimizin başçısı çıxışlarının birində bu barədə deyib: "Ölkələrin hərbi potensialının dəyərləndirilməsi ilə məşğul olan qurumların vaxtaşırı dərc etdiyi reytinqlərə əsasən, Azərbaycan Ordusu dünyanın aparıcı 50 ordusu sırasındadır. Həm peşəkarlıq, həm təlim, həm döyüş qabiliyyəti, ən başlıcası mənəvi döyüş ruhu, əlbəttə ki, Azərbaycan Ordusunun texniki təchizatı da çox cəhətdən bizim uğurumuza kömək edib…".

Azərbaycan Silahlı Qüvvələri bu döyüşlərdə dövlətimizin başçısının vurğuladığı kimi, dünyanın ən güclü orduları sırasında olduğunu təsdiq etdi. Ordu bölmələrimiz harada olur-olsun, döyüşləri planlı şəkildə apardı, xaotikliyə yol vermədi. Döyüş əməliyyatları haqqında Ali Baş Komandan müntəzəm məlumatlandırıldı. Əməliyyatların icrası, yaşayış məntəqələrinin azad olunması planlı şəkildə açıqlandı.

Burada bir məqamı da qeyd etmək istərdik. Şəhərlərində dinc əhalini, qadınları və uşaqları raket və artilleriya zərbələri ilə atəşə tutmasına baxmayaraq, Azərbaycan Ordusu düşmənin yalnız hərbi obyektlərini hədəfə alıb, hətta mülki əhalinin ziyan görməməsi üçün onları bu cür obyektlərdən uzaq durmağa çağırıb.

Yeri gəlmişkən, Prezident İlham Əliyev döyüşlərin qızğın vaxtında Xankəndinin erməni sakinlərinə də müraciət ünvanlayaraq bildirdi ki, Azərbaycanın əsas hədəfi yalnız işğalçı ordu və onun döyüşçüləridir. Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə və onun infrastrukturlarına atəş açmayacaq. Mülki erməni əhalinin narahat olmasına heç bir əsas yoxdur. Halbuki, bunun tam əksi olaraq, qeyd etdiyimiz kimi, təcavüzkar dinc əhalimizin yaşayış yerlərini, infrastrukturu ağır artilleriya atəşinə tutmaqdan belə çəkinmədi.

Şübhəsiz ki, Azərbaycan Ordusunun döyüş qabiliyyəti və əzmi, möhkəm maddi-texniki bazası, ordu-xalq-Prezident birliyi qısa müddətdə dövlətimizin ərazi bütövlüyünün təmin olunması istiqamətində möhtəşəm uğurlarını şərtləndirdi.

Hərbi ekspertlərin vurğuladıqları kimi, Azərbaycan döyüş əməliyyatları zamanı da haqqa, ədalətə söykənib, beynəlxalq konvensiyalara əsaslanıb. Belə ki, Ermənistan tərəfinin uğursuzluqdan isterikaya düşərək Azərbaycanın döyüş bölgəsində yerləşməyən rayon və kəndlərimiz yağılardan təmizləndikcə, düşmənin 30 il ərzində işğal altında saxladığı ərazilərdə daşı daş üstdə qoymadığının şahidi olduq. Qəsbkarların azərbaycanlıların evlərini dağıdaraq, xaraba qoyduqlarını, yaşayış məntəqələrində istehkamlar qurduqlarını, beton laylarla örtülmüş səngərlər hazırladıqlarını gördük. Bütün bu sədlər ordumuzun güc-qüdrəti ilə yarılaraq, düşmənin məhvini şərtləndirdi. Prezident İlham Əliyev də müsahibələrində bir neçə dəfə bu mövzuya toxunaraq, qeyd edib: "Vaxt keçəcək, bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da, çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlər idi. Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün aylarla vaxt lazım olacaq, bu əməliyyat uğurla nəticələnəcək ya nəticələnməyəcək, hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi".



Beləliklə, dövlətimizin başçısının qətiyyətli siyasəti Ermənistan və onun havadarlarının acı məğlubiyyəti ilə nəticələndi, Azərbaycan uzun illər çəkən bu ədalətsiz siyasi-hərbi mübarizədən qalib çıxdı. Azərbaycan Prezidenti müdrik siyasəti, qətiyyəti ilə status-kvonu dəyişdirdi, təmas xəttini darmadağın etdi. Haqq işində Azərbaycan xalqının birliyi, qalib Prezidentinə və qəhrəman Azərbaycan Ordusuna inamı bu tarixi qələbəni reallaşdırdı. Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bir daha təsdiq etdi.

Bu haqq savaşı Ermənistanın baş naziri Nikol Paşinyanın ölkəmizə qarşı qaldırdığı əsassız iddialarla və hikkələrlə danışması fonunda bir daha onun və anti-demokratik, qaniçən hökumətinin faşist ideologiyasına xidmət etdiyini bütün dünyaya göstərdi.

Şübhəsiz ki, dövlət başçımızın ölkəmizə rəhbərlik etdiyi 17 il ərzində cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan bu qələbəyə, necə deyərlər, addım-addım yaxınlaşırdı. Münaqişənin davam etdiyi illərdə cənab Prezident çox böyük uzaqgörənlik və təmkinlə həm diplomatik, həm də ordu quruculuğunda təxirəsalınmaz tədbirlər reallaşdırırdı. İştirakçısı olduğu ən yüksək beynəlxalq mərasimlərin tribunalarından Qarabağ həqiqətlərini dünyaya bəyan edir, aparıcı dövlətlərin rəhbərlərinin diqqətinə bu bölgənin ölkəmizin əzəli torpaqğı olduğunu və işğaldan azad edilməsinin labüdlüyünü çatdırırdı. Eyni zamanda, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi, ən müasir hərbi texnika ilə təchizatının təmin edilməsi üçün səylər göstərdi.

Prezident İlham Əliyev müharibənin davam etdiyi günlərdə xarici ölkələrin nüfuzlu kütləvi informasiya vasitələrinə, telekanallarına verdiyi müsahibələri ilə də respublikamızın haqq səsini dünya ictimaiyyətinə tutarlı arqumentlərlə çatdırdı, həmçinin Azərbaycanın beynəlxalq hüququn tələblərinə uyğun öz torpaqlarında savaş apardığını sübut etməklə ermənipərəst xarici dairələrin döyüşlərin gedişinə müdaxilələrinin qarşısını böyük məharətlə aldı.

Hərbi əməliyyatların aparılmasında Ali Baş Komandan İlham Əliyevin müntəzəm olaraq çatdırdığı qələbə xəbərləri, işğaldan azad olunan yaşayış məntəqələri, düşmənin məhv edilən canlı qüvvəsi və hərbi texnikası barədə məlumatları ölkəmizin hər bir vətəndaşında qürur, fərəh hissi doğurdu, xalqın dövlətimizin başçısına, rəşadətli ordumuza inamını gücləndirdi.

Dövlətimizin başçısı xalqa hər müraciətində haqqa, ədalətə söykənərək işğal altındakı bütün torpaqlarımızın tezliklə azad ediləcəyini, üçrəngli bayrağımızın bu ərazilərimizdə dalğalanacağını böyük inamla, əminliklə bildirirdi. Yağı tapdağından qurtulan yurd yerlərimizin xilası ilə bağlı qələbə müjdələri ulu öndər Heydər Əliyevin siyasi kursunu son 17 ildə bütün sahələrdə uğurla reallaşdıran Prezident İlham Əliyevin ata vəsiyyətini yüksək səviyyədə yerinə yetirdiyinin təsdiqinə çevrilirdi. Ali Baş Komandan Qarabağın tacı, incisi olan Şuşanın işğaldan azad edilməsi xəbərini isə Şəhidlər xiyabanından xalqa çatdırarkən bu fikri xüsusi vurğuladı: "Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim".

Bu gün bu Zəfər paradı ilə Azərbaycan yeni inkişaf, tərəqqi mərhələsinə daxil olur. Dövlətimizin başçısı İlham Əliyevin Laçının işğaldan azad olunması münasibətilə xalqa təbrikində vurğuladığı kimi, döyüş meydanında, siyasi müstəvidə qazanılan bu qələbə ilə ölkəmiz üçün yeni dövr açılır.

Bu qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, pozulmuş hüquqlarını özü bərpa etmək iqtidarındadır. Azərbaycan haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası, öz torpağında öz torpağı uğrunda vuruşduğunu sübut etdi. Siyasi meydanda işğalçı düşmənə layiq olduğu yerini göstərməklə bərabər, bizi öz haqq işimizdən heç bir qüvvənin çəkindirə bilməyəcəyini sübut etdi.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***